Respublika.- 2024.- 13 iyun, № 124.- S.4.

**Təqvimin əlamətdar günləri var ki, zamanın gerçəkliklərini ifadə edir. 15 iyun da belə günlərdən biri kimi tarixi əhəmiyyət daşıyır. Həmin gün ulu öndər Heydər Əliyev böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürmüş və uğurla həyata keçirmişdir.**

# Azərbaycanın taleyində dönüş nöqtəsi

1993-cü ildə Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra ölkəni müstəqilliyini itirməkdən, xaosdan, vətəndaş qırğınından, dövlət çevrilişindən qurtardı.

Tariximizə qızıl hərflərlə yazılan bu gün Azərbaycan xalqının taleyində dönüş nöqtəsi oldu. Müstəqil respublikamız yox olmaqdan, parçalanmaqdan qurtuldu. İtirilmiş inamı özünə qayıdan xalqımız elə həmin gündən addım-addım işıqlı gələcəyə yol aldı.

Heydər Əliyev həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə yürütdüyü uğurlu siyasət sayəsində Azərbaycanı yarıtmaz, xəyanətkar, satqın AXC-Müsavat cütlüyünün yuvarladığı bəlalardan xilas etdi.

Azərbaycan bütün sferalarda - ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni tərəqqi sahəsində sürətli inkişaf yoluna qədəm qoydu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı və yeni neft strategiyasının başlanğıcı qoyuldu.

Xalqının düçar olduğu qaçqınlıq, məcburi köçkünlük bəlasını bir nömrəli problem hesab edən ulu öndər hakimiyyətə gəldiyi ilk vaxtlardan bu istiqamətdə ardıcıl və uğurlu siyasət həyata keçirməyə başladı. Öncə yurd-yuvalarından didərgin salınmış soydaşlarımızın mənzil-məişət, sosial problemlərinin həll olunması istiqamətində əhəmiyyətli işlərə imza atdı. Ulu öndərin əsasını qoyduğu neft strategiyası sayəsində əldə edilən ilk vəsait məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi, ən əsası isə insanların acınacaqlı vəziyyətdə yaşamağa məcbur olduğu çadır düşərgələri ləğv edildi.

Azərbaycan idxalçı ölkədən ixrac edən ölkəyə çevrildi, beynəlxalq əlaqələr möhkəmləndi.

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. 1996-cı ildə Lüksemburqda Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı. İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən ümummilli liderin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanda bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası müəyyən edildi, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırıldı.

Ölkəmizdə ilk dəfə yerli özünüidarəetmə orqanlarının yaradılması da ulu öndərin adı ilə bağlıdır. Onun hakimiyyəti dövründə ölkədə bələdiyyələr yaradıldı, çoxpartiyalı sistem əsasında azad, demokratik seçkilər keçirildi.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı milli diasporumuzun monolit qüvvəyə çevrilməsində mühüm rol oynadı.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də uğurlu islahatlar reallaşdı, insan sağlamlığının qorunmasına maksimum səy göstərildi.

Ulu öndər deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam".

Bu gün dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Heydər Əliyevin yaratdığı möhkəm təməllər üzərində uğurla inkişaf edir. Müasir, qüdrətli Azərbaycan məhz ulu öndər Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Ümummilli liderin arzuları reallaşır, dövlətimizin başçısı taleyüklü məsələləri, planları, böyük uğurla həyata keçirir. Bu gün Heydər Əliyev ideyaları, Heydər Əliyev siyasəti Azərbaycana, xalqımıza möhtəşəm nailiyyətlər qazandırır. Vətən müharibəsində qazanılan tarixi Zəfər də bu uğurların məntiqi nəticəsidir.

**Aqil QULİYEV,**
**həkim, qastroenteroloq - hepatoloq.**